**Kazus**

11 oktyabr 2009-cu ildə EcoPolis ictimi birliyini təsis etmiş ərizəçilər qeydiyyat orqanına qarşı məhkəməyə müraciət edərək qurumun qeydiyyata alınmasını və məhkəmədən həmin quruma hüquqi şəxs statusu verilməsini xahiş etdi. Qurumun məqsədi, onun nizamnaməsində bəyan edildiyi kimi ölkədə dövlət siyasəti səviyyəsində davamlı inkişafı təşviq etmək göstərilmişdir. Qurumun obyekti nizamnaməsində bəyan edildiyi kimi ölkədə davamlı dövlət siyasəti təcrübəsinin artırılması göstərilmişdir; dövlət siyasətinin davamlı inkişaf prosesinin təşviqini artırmaq üçün ictimai iştirakın əməkdaşlığı və cəmiyyət haqqında müvafiq məlumata çatımlılıq göstərilmişdir. Nizamnamədə bu obyektlərə çatmaq üçün Avropa Birliyinin Direktivlərinin icrasına nəzarət; ictimai kommunikasiya kampaniyaları; rəy sorğuları, ictimai debatlar; vətəndaşların məlumatlandırılmasının artırılması; ictimai əhəmiyyət daşıyan məsələlər barəsdində insanların məlumatlandırılması; dövlət hakimiyyəti qurumları ilə vətəndaşlar arasında görüşlərin təşkil edilməsi; yerli və beynəlxalq qurumlar arasında şəbəkənin yaradılması göstərilmişdir.

Birinci instansiya məhkəməsinin qərarı ilə iddia təmin edilmişdir. Baş Prokuror həmin qərardan hüquqi məsələlərlə bağlı Ali Məhkəməyə şikayət vermişdir. Şikayətə əsasən, qurumun məqsədlərinin siyasi partiyaya uyğun olduğu bildirildi. Siyasi partiya isə ictimai qurumun fəaliyyətini tənzimləyən qanunvericilik əsasında qeydə alına bilməz. Ali Məhkəmənin yekun qərarına əsasən şikayət təmin olundu və məhkəmənin qərarında qeyd olundu ki, qurumun məqsədləri və hədəfləri o qədər geniş və qeyri-müəyyəndir ki, daha çox siyasi partiyanın fəaliyyət dairəsinə uyğundur. İctimai qurumun fəaliyyətini tənzimləyən qanunvericilik isə həmin qanun əsasında siyasi partiyanın qeydiyyata alınmasını qadağan edir.

İctimai qurumun fəaliyyətini tənzimləyən qanunvericiliyin müvafiq müddəalarına əsasən, qeydiyyatla bağlı ərizədə uyğunsuzluq müəyyən edən birinci instansiya məhkəməsi həmin uyğunsuzluğu aradan qaldırmaq üçün təsisçilərə vaxt verməlidir.

Yerli qanunvericiliyə əsasən, əgər ictimai qurumun fəaliyyəti və məqsədləri qanunsuz olarsa və ya ictimai qaydaya ziddiyyət təşkil edərsə və ya ictimai birlik öz məqsədlərinə qanunsuz yollarla çatmışlarsa, onun ləğvi imkanı müəyyən edilmişdir.

Ərizəçilər AİHM-ə müraciət edərək təsis etdikləri ictimai qurumun qeydiyyata alınmamasını Konvensiyanın 11-ci maddəsinə əsasən, onların sərbəst toplaşmaq azadığının pozduğunun və qeydiyyatdan imtinanın demokratik cəmiyyətdə zəruri olmadığını iddia etdilər. Ərizəçilər bildirdilər ki, onların yeganə məqsədi ictimai qurum yaratmaqdır. Hökumət iddia etdi ki, ərizəçilər siyasi partiya kimi qeydiyyata alınması haqqında müraciət edə bilərlər. Bu zaman həmin müraciətə siyasi partiyaların fəaliyyətini tənzimləyən qanunvericilik əsasında baxılacaqdır. Lakin hökumət eyni zamanda o faktı da təsdiq etdi ki, qurumun təsis sənədlərində onun məqsədinin siyasi partiya yaratmaq olduğu aydın şəkildə qeyd olunmayıb. Lakin bununla belə, hökumət iddia etdi ki, özünün adi ictimai qurum kimi naif görüntüsü arxasında qurum özü haqqına de facto siyasi partiya olduğu qənaətindədir. Ona görə də yerli məhkəmələr pərdəarxasında olan reallığı başa düşdüklərindən yekun qərar əsasında qeydiyyatdan imtina etmişlər. Eyni zamanda hökumət bildirdi ki, qurumun qeydiyyatına tam məhdudiyyət qoyulmamışdır. Belə ki, o, nizamnaməsinə müvafiq dəyişikliklərlə ictimai qurum kimi qeydiyyata alınması üçün müraciət etmək və ya siyasi partiya kimi qeydiyyata alınmaq üçün müraciət etmək hüququndan məhrum edilməmişdir.

Sizcə, Avropa Məhkəməsinin hazırki işlə bağlı mövqeyi necə olacaqdır.

*Hazırladı: Elnur Həsənov*